# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Azərbaycanda psixoloji fikrin təşəkkülü və inkişafı

**Könül Qurbanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** konul.qurbanova.91@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. Ə.T. Baxşəliyev,
psixol.ü.e.d., prof. R.İ. Əliyev

**Açar sözlər:** elməqədərki mərhələ, elmi mərhələ, islam dini, şifahi xalq ədəbiyyatı nümunələri, müstəqillik illəri

**Ключевые слова:** донаучный этап, научный этап, исламская религия, примеры устного народного творчества, годы независимости

**Key words:** pre-scientific stage, scientific stage, islam religion, folklore examples, the years of independence

Psixoloji fikrin yaranması və inkişafı iki mərhələyə bölünür: elməqədərki və elmi mərhələ. Lakin bu mərhələlər arasında sərhəd çəkmək də doğru deyildir, çünki onlar bir-birinin tərkibində inkişaf edib, bir-birinə təsir göstərmişlər.

Elməqədərki mərhələ həm Şərq fəlsəfi fikrindən həm də xalq yaradıcılığından bəhrələnmişdir. Azərbaycanda bu məsələ psixoloqlarımız tərəfindən ətraflı araşdırılmış, Ə.T. Baxşəliyev bu mövzuda öz doktorluq dissertasiyasını müdafiə etmişdir. Ə.S. Bayramov və Ə.Ə. Əlizadə elməqədərki psixologiyanı həm də "Güzəran psixologiyası" adlandırmışlar. Onlar qeyd edirlər: "Güzəran psixologiyasına aid biliklərin mənbəyini ictimai və şəxsi təcrübə təşkil edir. Hələ qədim zamanlardan başlayaraq bu biliklər nəsildən-nəslə verilmiş müxtəlif obrazlı ifadələrdə, atalar sözlərində, bayatılarda, nağıllarda, dastanlarda və s. də öz əksini tapmışdır. Bizim hər birimiz bu bilikləri ətraf adamlardan, eləcə də şifahi xalq ədəbiyyatı vasitəsilə mənimsəyirik. İnsanın şəxsi təcrübəsində həmin biliklər daha da dəqiqləşir, yeni məna çalarları kəsb edir."

İnsanlar qədim zamanlardan münasibət qurduqları insanları anlamağa, dərk etməyə çalışmış və buna görə də davamlı müşahidələr aparmışlar. Getdikcə əldə olunan məlumatlar ümumiləşdirilmiş, dildən-dilə, ağızdan-ağıza keçərək hər kəsin qəbul etdiyi fikirlər olmuşdur. Bunlar şifahi xalq ədəbiyyatı nümunələri olan nağıllar, əfsanələr, atalar sözləri, nəğmələr, bayatılar və s. şəklində çatdırılmışdır. Ümumiyyətlə, elmi psixologiyanın tədqiq etdiyi bütün məsələlərə xalq yaradıcılığında da yer verilmiş, münasibət bildirilmişdir.

Psixoloji fikrin yaranmasın və inkişafının digər bir istiqaməti isə yazılı ədəbiyyat, filosof və yazıçıların, şairlərin yaradıcılığıdır. Bu mənada "Kitabi-Dədə Qorqud" dastanı, S.Şirazi, Nizami, N.Tusi, Nəsimi, Füzuli, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə və digər mütəfəkkirlərin yaradıcılığı Azərbaycan psixoloji fikrinin yaranması, inkişafı və formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan xalqının islam dininin Azərbaycana gəlişinə qədərki həyat, məişət və təfəkkür tərzi şifahi xalq ədəbiyyatında və "Kitabi-Dədə Qorqud" dastanında çox bariz şəkildə əksini

tapmışdır. Dastanda totemizmin, şamanizmin, çoxallahlılığın xeyli açıq və gizli əlamətləri vardır.

Qədim türklər islamdan əvvəl çoxallahlılığa inanırdılar. Onlar öz qılınclarına and içir, suyla xəbərləşir, qurd üzü mübarəkdir deyirdilər. Deməli, xalqın etnogeni ilə mühiti arasında uyğunluq olduqda xalq inkişaf edir.

“Kitabi-Dədə Qorqud”da başlıca ideyalardan biri əsarətdən, mütilikdən, kökünə, soyuna dönük çıxmaqdan ölümün üstün tutulmasıdır. Gördüyümüz kimi, psixoloji fikrin inkişaf mərhələlərinin müəyyən edilməsində şifahi xalq ədəbiyyatı nümunələrinin, eyni zamanda klassiklərimizin yaratdıqları əvəzsiz xəzinədir.

Azərbaycanda psixoloji fikrin birinci mərhələsi eramızdan əvvəl başlayıb islamın Azərbaycana gəlişi ilə başa çatır, lakin ikinci mərhələ asanlıqla birdən-birə yaranmadı. İslam dininin Azərbaycana gəlişi ilə burada ərəb, fars, türk və digər etnos və xalqların dünyagörüşü, mədəniyyəti, adət-ənənələrinin sintezindən yeni mədəniyyət, yeni təfəkkür yaranmağa başladı. Şəxsiyyətin formalaşmasında orta əsrlərdən başlayaraq tərbiyə ön plana keçdi. Şair, filosof, mütəfəkkirlərin əsərlərində nəsihətçilik əsas yer tutdu, mənəviyyat məsələləri önə keçdi.

18-ci əsrin sonları, 19-cu əsrin əvvəllərində ruslar Azərbaycana daxil olur. Bu zaman artıq psixoloji fikrin ikinci mərhələsi başa çatır, üçüncü mərhələ başlayır. Formalaşmış bir çox keyfiyyətlər, xüsusiyyətlər dəyişir. 19-cu əsrin sonlarına doğru Azərbaycanda maarif, mədəniyyət inkişaf edir, ziyalı bir nəsil yetişirdi. Bakıxanov, Zərdabi, Vəzirov və başqaları elmə, mədəniyyətə, zamana uyğun əsərlər yaratmaqla bərabər milli və bəşəri hisslərin formalaşması üçün əllərindən gələni edirdilər.

20-ci əsrin əvvəllərini Azərbaycanın yeni bir intibah dövrü hesab edirlər. Bu dövrdə xalqın həyat tərzi, düşüncə və təfəkküründə, adət-ənənələrində böyük dəyişikliklər baş verdi. Bütün sahələrində əvvəlki davranış formaları nadanlıq hesab edilməyə, münasibətlər başqa şəkil almağa başladı.

Böyük Oktyabrın qələbəsindən sonra SSRİ adlanan məkanda bir sistem yarandı. “Öyünərsə, ər öyünsün, aslandı, öyünmək qadınlara böhtandı” deyən qədim türk qadınlarını sevillər, almazlar, həyatlar əvəz etdi. Bu, Azərbaycan psixoloji fikrin dördüncü mərhələsi idi.

20-ci əsrin sonlarında (1991-ci ildə) SSRİ dağıldı, yeni, müstəqil dövlətlər yarandı. Azərbaycan xalqı da uzun zamandır uğrunda mübarizə apardığı müstəqilliyi 1991-ci il 18 oktyabrda elan etdi. Bununla da ölkəmizin, xalqımızın həyatında yeni bir mərhələ-müstəqillik mərhələsi başlandı. Azərbaycanda psixoloji fikrin beşinci mərhələsi də bu illərdən başlayır. Bu dövrdə müstəqillik əldə etməklə yanaşı həm də torpaqlarımızın bir hissəsini itirdik. Bir milyona yaxın qaçqın və məcburi köçkünlərimiz öz yurd yuvalarından didərgin düşdü. O yerlərdə yaşayan insanların özünəməxsus adət-ənənələri, həyata baxışları, həyat tərzi də deformasiyaya uğradı. Artıq ideoloji, iqtisadi sistem dəyişdi, insanlar həyat və düşüncə tərzini dəyişməli oldu. Yeni dövrün psixologiyası yaranmağa, inkişaf etməyə başladı. Onun necəliyinin qiymətləndirilməsinə isə zaman lazımdır.

**Məqalənin aktuallığı.** Azərbaycanda psixoloji fikrin yaranması və təşəkkülü ilə əlaqədar psixoloqlarımız müxtəlif tədqiqatlar aparmışlar. Onlar psixoloji fikrin inkişafının bir neçə mərhələdən keçdiyini müəyyən etmişlər. Elməqədərki və elmi mərhələdə rol oynamış şifahi xalq ədəbiyyatı nümunələri və klassiklərimizin əsərləri nəzərdən keçirilməsi nöqteyi-nəzərdən bi məqalə aktual əhəmiyyət daşıyır.

**Məqalənin elmi yeniliyi.** Azərbaycanda psixoloji fikrin mərhələlərinin araşdırılması məqalənin elmi yeniliyi hesab olunmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin

müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əliyev R.İ. Psixologiya tarixi. Bakı, 2006.
2. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı, 2008.
3. İnternet resursları.

**К. Курбанова**

## Формирование и развитие психологической мысли в Азербайджане

## Резюме

Возникновение психологической мысли в Азербайджане прошел долгий путь развития. Исследователи делят это развитие на 5 этапов. Первый этап связан с исламской религией, а другие этапы вступлением русских в страну и новостями в социально-политической жизни страны. Независимость Азербайджана характеризуется событиями. Мы встречаемся психологическими знаниями связанные донаучным этапом в примерах устного народного творчества.

**K. Gurbanova**

## The formation and development of psychological ideas in Azerbaijan

## Summary

The creation of psychological ideas in Azerbaijan has a long way of development. Researchers divide this development into 5 stages. The first stage is related to the islamic religion, the other stages are related to the Russians' entry into the country, innovations in the social and political life of the country and events related to the independence of Azerbaijan. But psychological knowledge of the pre-scientific stage is found in folklore examples.

**Redaksiyaya daxil olub:** 30.01.20018